*Elmi İş* Avqust 2026, Cild: 20, Sayı: 5, s. 18−33
*Scientific Work* August 2026, Volume: 20, Issue: 5, pp. 18−33
DOI: https://doi.org/10.36719/2663-4619/129/18-33

# Böyük Vətən müharibəsi illərində Naxçıvanda sosial transformasiya və ədəbi proseslərin qarşılıqlı təsiri

**Fəxrəddin Cəfərov[1], Şərəbanı Məmmədova[2*], Sədaqət Nemətova[2], Nadir Hüseynbəyli[3], Elçin Zamanlı[3]**

***Xülasə.*** *Bu məqalədə Böyük Vətən Müharibəsi (1941–1945) illərində Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi vəziyyət, arxa cəbhənin fəaliyyəti və ədəbi mühitin formalaşması kompleks şəkildə təhlil edilmişdir. Tədqiqatın məqsədi müharibə dövründə region əhalisinin arxa cəbhədə həyata keçirdiyi iqtisadi, sosial və mədəni fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirmək, eləcə də həmin dövrdə formalaşmış ədəbi mühitin və dövri mətbuatın vətənpərvərlik ideyalarının təbliğində rolunu qiymətləndirməkdir. Tədqiqat zamanı Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin sənədləri, dövrü mətbuat materialları və mövzu üzrə elmi ədəbiyyat müqayisəli-tarixi və mənbəşünaslıq metodları əsasında təhlil edilmişdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, müharibə illərində Naxçıvan əhalisi kənd təsərrüfatı istehsalının davam etdirilməsi, müdafiə fonduna maliyyə və maddi vəsaitlərin ayrılması, cəbhəyə humanitar yardımların göndərilməsi və əmək resurslarının səfərbər edilməsi istiqamətlərində mühüm fəaliyyət göstərmişdir. Eyni zamanda, "Şərq Qapısı" qəzeti və regionun ədəbi mühiti vətənpərvərlik ideyalarının yayılmasında, əhalinin mənəvi səfərbərliyinin gücləndirilməsində və ictimai həmrəyliyin formalaşdırılmasında əhəmiyyətli rol oynamışdır. Əldə olunan nəticələr Böyük Vətən Müharibəsi dövründə Naxçıvanın arxa cəbhə fəaliyyətinin sosial-iqtisadi və mədəni aspektlərinin kompleks şəkildə qiymətləndirilməsinə imkan yaradır.*

***Açar sözlər:*** *Böyük Vətən Müharibəsi, Naxçıvan Muxtar Respublikası, arxa cəbhə, sosial-iqtisadi fəaliyyət, ədəbi mühit, "Şərq Qapısı" qəzeti*

[1]Naxçıvan Dövlət Universiteti, tarix elmlər doktoru, Naxçıvan, Azərbaycan
[2]Naxçıvan Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan, Azərbaycan
[3]Naxçıvan Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru, Naxçıvan, Azərbaycan
[*]Məsul müəllif. E-poçt: serebanumemedova@ndu.edu.az
Daxil oldu: 27 Yanvar 2026; Qəbul edildi: 9 İyul 2026; Onlayn dərc edildi: 22 Avqust 2026
© Müəllif(lər) 2026. Bu açıq girişli məqalə Creative Commons Attribution–NonCommercial 4.0 Beynəlxalq Lisenziyasının (CC BY-NC 4.0) şərtlərinə uyğun olaraq yayımlanmışdır.

# Social Situation and Literary Environment in Nakhchivan During the Great Patriotic War

**Fakhraddin Jafarov[1], Sherabani Mammadova[2*], Sedagat Nematova[2], Nadir Huseynbeyli[3], and Elchin Zamanli[3]**

***Abstract.*** *This article comprehensively examines the socio-economic conditions, home front activities, and the development of the literary environment in the Nakhchivan Autonomous Republic during the Great Patriotic War (1941–1945). The study aims to identify the main directions of the economic, social, and cultural activities carried out by the region's population on the home front during the war, as well as to evaluate the role of the literary environment and the periodical press in promoting patriotic ideas. The research is based on a comparative-historical and source analysis of documents from the State Archive of the Nakhchivan Autonomous Republic, periodical press materials, and relevant scholarly literature. The findings reveal that during the war years, the population of Nakhchivan made significant contributions by maintaining agricultural production, allocating financial and material resources to the Defense Fund, providing humanitarian assistance to the front, and mobilizing labor resources. At the same time, the Sharq Gapisi (Eastern Gate) newspaper and the region's literary environment played a significant role in disseminating patriotic ideas, strengthening the moral mobilization of the population, and fostering social solidarity. The findings provide a comprehensive assessment of the socio-economic and cultural dimensions of Nakhchivan's home front activities during the Great Patriotic War.*

***Keywords:*** *Great Patriotic War, Nakhchivan Autonomous Republic, home front, socio-economic activities, literary environment, Sharq Gapisi (Eastern Gate) newspaper*

---

[1]Nakhchivan State University, Doctor of History, Nakhchivan, Azerbaijan
[2]Nakhchivan State University, PhD in Philology, Nakhchivan, Azerbaijan
[3]Nakhchivan State University, PhD in History, Nakhchivan, Azerbaijan
[*]Corresponding author. E-mail: serebanumemedova@ndu.edu.az
Received: 27 January 2026; Accepted: 9 July 2026; Published online: 22 August 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

İkinci Dünya müharibəsinin tərkib hissəsi olan Böyük Vətən müharibəsi (1941–1945) Sovet İttifaqının bütün regionlarında olduğu kimi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının da sosial-iqtisadi, demoqrafik və mədəni həyatına ciddi təsir göstərmişdir. Müharibənin başlanması ilə regionun əmək, maliyyə və maddi resurslarının əhəmiyyətli hissəsi cəbhənin ehtiyaclarının təmin edilməsinə istiqamətləndirilmişdir. Əmək qabiliyyətli kişilərin böyük hissəsinin hərbi xidmətə çağırılması kənd təsərrüfatında, sənaye müəssisələrində və ictimai xidmət sahələrində işçi qüvvəsi çatışmazlığı yaratmış, nəticədə istehsal prosesinin davam etdirilməsində qadınların, yaşlıların və yeniyetmələrin rolu artmışdır.

Müharibə illərində Naxçıvanın arxa cəbhə fəaliyyəti bir neçə əsas istiqamətdə həyata keçirilmişdir. Bu istiqamətlərə kənd təsərrüfatı və sənaye istehsalının müharibə şəraitinə uyğunlaşdırılması, müdafiə fonduna maliyyə və qiymətli əşyaların verilməsi, cəbhəyə ərzaq, geyim və digər maddi yardımların göndərilməsi, cəbhəçi ailələrinə sosial dəstəyin göstərilməsi, eləcə də əmək resurslarının səfərbər olunması daxil idi. Regionun iqtisadi imkanlarının məhdudluğuna baxmayaraq, yerli əhalinin cəbhənin təminatına cəlb edilməsi sistemli və genişmiqyaslı xarakter daşımışdır.

1941-ci il iyunun 22-də Nasist Almaniyasının SSRİ-yə hücumundan sonra Naxçıvanda hərbi və əmək səfərbərliyi tədbirlərinin həyata keçirilməsinə başlanılmışdır. Əhalinin bir hissəsinin cəbhəyə göndərilməsi ilə əlaqədar kolxoz və sovxozlarda, sənaye müəssisələrində və dövlət idarələrində əmək bölgüsü yenidən təşkil edilmişdir. İstehsal planlarının yerinə yetirilməsi, ərzaq təminatının davam etdirilməsi və cəbhəyə yardım kampaniyalarının təşkili yerli idarəetmə orqanlarının qarşısında duran əsas vəzifələrdən olmuşdur.

Müharibə şəraiti yalnız regionun iqtisadi və sosial həyatına deyil, ədəbi-mədəni mühitinə də təsir göstərmişdir. Dövri mətbuat, xüsusilə “Şərq Qapısı” qəzeti əhalinin məlumatlandırılması, hərbi və əmək səfərbərliyinin təbliği, cəbhəyə yardım kampaniyalarının işıqlandırılması və ictimai rəyin formalaşdırılması baxımından mühüm vasitəyə çevrilmişdir. Eyni zamanda, Naxçıvanda fəaliyyət göstərən şair, yazıçı və publisistlərin yaradıcılığında müharibə, cəbhə həyatı, arxa cəbhə fəaliyyəti, vətənpərvərlik və qələbəyə inam mövzuları əsas istiqamətlərdən biri olmuşdur.

Mövcud tədqiqatlarda Naxçıvanın Böyük Vətən müharibəsi illərindəki vəziyyəti əsasən hərbi iştirak, iqtisadi fəaliyyət, qadınların əmək prosesinə cəlb olunması və ayrı-ayrı ədəbi şəxsiyyətlərin yaradıcılığı kontekstində araşdırılmışdır. Bununla belə, regionda sosial-iqtisadi səfərbərlik prosesləri ilə ədəbi-mədəni fəaliyyətin qarşılıqlı əlaqəsinin vahid elmi yanaşma əsasında kompleks təhlilinə kifayət qədər diqqət yetirilməmişdir.

Tədqiqatın məqsədi 1941–1945-ci illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında həyata keçirilmiş sosial-iqtisadi səfərbərlik tədbirlərini, əhalinin arxa cəbhə fəaliyyətində iştirakını və müharibə dövrü ədəbi-mədəni mühitinin əsas xüsusiyyətlərini arxiv sənədləri və dövri mətbuat materialları əsasında təhlil etməkdir. Tədqiqat çərçivəsində müdafiə fonduna göstərilən maliyyə və maddi yardımların əsas istiqamətləri, qadınların və gənclərin əmək fəaliyyətinə cəlb olunması, cəbhəçi ailələrinin sosial müdafiəsi və ədəbi publisistikanın ictimai səfərbərlikdəki rolu araşdırılır.

## Materiallar və Metodlar

Tədqiqatın əsas mənbə bazasını Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində mühafizə olunan arxiv sənədləri, dövrü mətbuat materialları və mövzu üzrə nəşr edilmiş elmi ədəbiyyat təşkil edir. Arxiv materialları arasında dövlət idarələrinin hesabatları, qərar və sərəncamlar, müdafiə fonduna dair maliyyə sənədləri, yerli hakimiyyət orqanlarının iclas protokolları, həmçinin müharibə illərinə aid statistik məlumatlar xüsusi yer tutur. Dövrü mətbuatın əsas mənbəyini "Şərq Qapısı" qəzeti təşkil etmişdir. Bununla yanaşı, mövzu ilə bağlı monoqrafiyalar və elmi araşdırmalardan da istifadə olunmuşdur.

Tədqiqat zamanı tarixi-təhlil, müqayisəli-tarixi, mənbəşünaslıq və kontent-analiz metodlarından istifadə edilmişdir. Tarixi-təhlil metodu vasitəsilə müharibə illərində Naxçıvanın sosial-iqtisadi vəziyyəti və arxa cəbhənin fəaliyyət istiqamətləri sistemli şəkildə araşdırılmışdır. Müqayisəli-tarixi metod müxtəlif illərə aid statistik göstəricilərin dinamikasını müəyyən etməyə imkan vermişdir. Mənbəşünaslıq yanaşması əsasında arxiv sənədlərinin etibarlılığı və informativliyi qiymətləndirilmiş, dövrü mətbuat materialları isə kontent-analiz metodu ilə təhlil edilərək onların ictimai səfərbərlik və vətənpərvərlik təbliğində oynadığı rol müəyyənləşdirilmişdir.

Tədqiqatın metodoloji əsasını tarixşünaslıqda qəbul olunmuş obyektivlik, tarixilik və sistemlilik prinsipləri təşkil edir. Araşdırma zamanı müxtəlif mənbələrdən əldə edilmiş məlumatlar qarşılıqlı şəkildə müqayisə edilmiş, statistik göstəricilər arxiv sənədləri ilə tutuşdurulmuş və nəticələrin elmi etibarlılığı təmin edilməyə çalışılmışdır.

## Nəticələr

Naxçıvan MR Dövlət Arxivində saxlanılan sənədlərdən aydın olur ki, 1941-ci ilin iyul ayında muxtar respublika üzrə rəhbər işçilərin, kolxoz sədrlərinin, idarə və müəssisə rəhbərlərinin müşavirəsi

keçirilmişdir. Müşavirədə cəbhədə döyüşən hərbçilərin ailələrinə yardım göstərilməsi məqsədilə yardım fondlarının yaradılması və cəbhədə xidmət edən hərbçilərə hədiyyələrin göndərilməsi məsələləri müzakirə edilmişdir. Dövlət tərəfindən yaradılmış komissiyaların, eləcə də zəhmətkeşlərin təşəbbüsü ilə dörd ay ərzində muxtar respublika üzrə Müdafiə Fonduna 120 800 manat nağd pul, 1 727 000 manatlıq istiqraz vərəqəsi və 7 kq 700 qram qızıl-gümüş toplanaraq dövlət bankına verilmişdir. Bundan əlavə, tədarük məntəqələrinə 66,1 ton taxıl, 64,3 ton ət, 2 155 kq yun, 897 kq yağ, 10,6 ton tərəvəz, 3 634 cüt yun corab, 1 461 cüt yun əlcək və müxtəlif geyim əşyaları toplanaraq cəbhəyə göndərilmişdir (Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi [Nax.MRDA], f. 1, s. 1, iş 8, v. 8).

Müharibə illərində qadınların fəaliyyəti xüsusi əhəmiyyət daşımışdır. Naxçıvan qadınları kənd təsərrüfatı və istehsalat sahələrində kişiləri əvəz etmiş, traktorçu, briqadir, müəllim və tibb işçisi kimi fəaliyyət göstərmişlər. Bir sıra qadınlar əmək normalarını yüksək göstəricilərlə yerinə yetirmişlər. Bu fəaliyyət kənd təsərrüfatı və istehsal proseslərinin davam etdirilməsinə töhfə vermişdir.

Şərur rayonundan olan cəbhəçi anası K. Əliyeva 1941-ci ilin oktyabrında şəxsi bağlama hazırlayaraq Moskvanın müdafiəçilərinə məktubla birlikdə göndərmişdir. Məktubda belə qeyd olunurdu: “Qoy mənim bu balaca ana sovqatım sizin düşməni məhv edən əllərinizi qızdırsın. Düşmənə qəzəbinizi artırsın, qələbənizi yaxınlaşdırsın” (Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi [Nax.MRDA], f. 1, s. 1, iş 9). Məktəblilər də bu fəaliyyətlərdə iştirak etmiş, metal tullantıları və dərman bitkiləri toplamışlar.

Naxçıvan əhalisi müharibə dövründə yalnız əmək fəaliyyəti ilə deyil, həm də maddi yardımları ilə seçilirdi. İnsanlar şəxsi vəsaitlərini müdafiə fonduna köçürür, qızıl-zinət əşyalarını dövlətə təhvil verirdilər. Əhali tərəfindən isti geyimlər hazırlanır, cəbhəyə sovqatlar göndərilir, yaralı əsgərlər üçün yardımlar toplanırdı. Bu fəaliyyətlər dövrün mətbuatında əhalinin vətənpərvərlik və həmrəylik nümunəsi kimi təqdim olunurdu. 2 sentyabr 1941-ci il tarixdə “Şərq qapısı” qəzeti “Naxçıvan qadınları Azərbaycanın qabaqcıl qadınlarının müraciətinə qoşulurlar” başlıqlı məqalədə yazırdı: “Azərbaycanın qabaqcıl qadınlarının, Azərbaycanın bütün qadınlarına olan müraciətini müzakirə edən biz Nazçıvan şəhərinin bir qrup qadını ölkəmizin müdafiə fondunu daha da möhkəmləndirməyə yönəldilmiş bu vaxtlı müraciəti bəyənir və çox böyük həvəslə ona qoşuluruq. Bu müraciətnamə, doğma vətənini canından da artıq sevən biz Naxçıvan qadınlarının fikrini dəxi ifadə edir. Sizin dediyiniz kimi, vətən müharibəsi cəbhələrində cəllad hitler faşizminə qarşı qəhrəmanlıqla vuruşan qardaşlarımıza ana qayğısı və navazişi göstərmək vaxtıdır. Bəli, bacılarımız, igid döyüşçülərimizə daha çox hədiyyələr vermək, hünər və təşəbbüslər göstərmək vaxtıdır! Başımızın üstünü böyük qorxu aldığı bir zamanda , vətən müharibəsinin bu ciddi vaxtında artıq nəyimiz varsa, hər nə-qızıl, gümüş və başqa qiymətli şeylərimiz varsa hamısı vətən yolunda qurbandır! Biz, sizin müraciətinizdən bütün nəticələri çıxararaq aşağıda göstərilən ən qiymətli şeylərimizi vətəni müdafiə fonduna verməyi layiq bilirik:

Talıbova Rübabə - qızıl qol saat, 300 manat pul, 800 manatlıq istiqraz və mis; Protçenko – qızıl qol saatı, 1.000 manat pul, 1 qızıl üzük; Quliyeva Leylan (evdar qadın) 3 misqal ağırlığında qızıl boğazaltı, 2 mis qazan və 300 manatlıq istiqraz; Abbasova Siddiqə - 1 qızıl üzük, mis və 300 manatlıq istiqraz; Həsənova Qumru-650 manat pul, 1.000 manat istiqraz vərəqəsi; Abbasova Züleyxa -qızıl üzük, mis; Abbasova Vasilə - qızıl sırğa; Fətullayeva Əqiyyə- bir misqal qızıl, 1.500 manatlıq istiqraz vərəqəsi; Səfiyeva Pəri -bir qızıl bacaxlı, 900 manatlıq istiqraz; Qədimova Simuzər - qızıl üzük, 2 gümüş qaşıq, 800 manat pul və 1.000 manatlıq istiqraz; Aslanova Məryəm 600 manat pul, müharibə qurtaranadək ayda 350 manat pul, 2.000 manatlıq istiqraz və mis; Abbasova Anna-qızıl cib saatı, 2 gümüş qaşıq, 2.000 istiqraz və mis; Vəliyeva Güllü-600 manat nağd pul; Məmmədova Səkinə - bir misqal ağırlığında qızıl qarabatdağ, 1.000 manatlıq istiqraz; Qədimova Lida-2 qızıl üzük, 1.500 manatlıq istiqraz və müharibə qurtaranadək hər ay 2 günlük əmək haqqı, Həkim Knıtkova-1.500 manatlıq istiqraz; Xəlilova Təyyiba-8 parça qızıl, 300 manat pul, qızıl sırğa, müharibə qurtaranadək

ayda 3 günlük əmək haqqı və mis; Kazımova Güllü- 1 qızıl üzük, 500 manatlıq istiqraz, mis; Əliyeva Xavər- 300 manat pul, 500 manatlıq istiqraz və mis; Behbudova Gülabə - 1 qızıl üzük, 1.000 manatlıq istiqraz; Həsənova Bəni-qızıl sırğa, 1.000 manatlıq istiqraz; Səkinə Rzalı- 6 q qızıl, 300 manat pul, 500 manatlıq istiqraz, 10 kq mis və müharibə qurtarınca hər ay 3 günlük əmək haqqı".

Şərur rayon zəhmətkeşləri ön cəbhədəki döyüşçülərmizə 01 noyabrdan 20 noyabr 1941- ci il tarixə kimi əşya və isti paltarlar: 411 ədəd yarım şuba, 740 yun əlcək, 49 ədəd isti papaq, 80 ədəd pambıq cılıkka, 11 ədəd şalvar, 40 ədəd isti köynək, 16 ədəd isti tuman, 625 cüt yun corab, 92 ədəd sırıxlı, 3 ədəd kürk, 19 ədəd adyal, 3ədəd balınc üzü, 216 ədəd cib dəsmalı, 99 ədəd üz dəsmalı, 117 ədəd əl-üz sabunu, 66 ədəd paltar sabunu, 9 kq tütün və s. toplayıb göndərmişlər (Nax.MRDA. f.116. s1, iş. 419, v. 80-81).

20 noyabr 1941-ci ilə kimi Naxçıvan Muxtar Respublikası üzrə vətəndaşlardan və təşkilatlardan ölkənin müdafiəsi üçün dövlət müdafiə fonduna 1.251000 manat nağd pul, 1.738000 manatlıq istiqraz vərəqəsi, 1 kq 217 q qızıl, 6 kq 388 q gümüş dövlət bankına təhvil verilmişdir. Bundan başqa müdafiə fonduna 66. 432 kq taxıl, 64.318 kq ət, 888 kq yağ, 2.155 kq yun, 797 kq pendir, 42.5 kq bal, 7.138 kq üzüm, 3894 kq tərəvəz və b.kənd təsərrüfatı məhsulları vermişdilər (Nax.MRDA. f .116. s1, iş. 419, v. 89-90).

**Cədvəl 1**
*1941-ci ildə Naxçıvanın müdafiə fonduna yardımları*

| Yardım növü | Miqdarı |
|---|---|
| Nağd pul | 1 251 000 manat |
| İstiqraz | 1 738 000 manat |
| Qızıl | 1 kq 217 q |
| Gümüş | 6 kq 388 q |
| Taxıl | 66 432 kq |
| Ət | 64 318 kq |
| Yağ | 888 kq |
| Yun | 2 155 kq |
| Pendir | 797 kq |
| Bal | 42.5 kq |
| Üzüm | 7 138 kq |
| Tərəvəz | 3 894 kq |

*Mənbə.* NMR Dövlət Arxivi.

1 yanvar 1942-ci ildən 31 dekabr 1942-ci ilə kimi Naxçıvan Respublikasının zəhmətkeşləri müharibədə döyüşən əsgərlərə isti paltarların alınması üçün 167222 manat pul və 10556 ədəd müxtəlif əşyalar, "Azərbaycan kolxozu" tank kaloniyasının tikintisi üçün 6 milyon 780 min manat, təyyarə eskadrasının tikilməsi üçün 1 milyon 935 min manat və tibbi təyyarə tikiməsi üçün 20.450 manat vermişlər (Nax.MRDA. f .116. s1, iş. 419, v. 89-90).

Bundan başqa 137 manat 380 kq taxıl, 151 baş iri və xırda buynuzlu heyvan, Qızıl Ordunun əsgərləri üçün 6520 ədəd bağlama ( pasılka) 61 qoyun və 67.048 manat pul toplayaraq göndərmişlər. "Azərbaycan kolxozu" tank kaloniyasının tikilməsi üçün Şərur rayonunun Engelis adına kolxozun sədri Məmməd Əliyev 350 min manat, "Sosializm" adına kolxozun sədri Hüseyn Əliyev 100 min manat və Allahverdiyev 80 min manat pul vermişlər (Nax.MRDA. f .116. s1, iş. 419, v.11).

**Cədvəl 2**
*1942-ci ildə Naxçıvan zəhmətkeşlərinin hərbi fondlara göstərdiyi əsas maliyyə yardımları*

| Yardım istiqaməti | Məbləğ / Miqdar |
|---|---|
| İsti paltarların alınması | 167 222 manat |
| Müxtəlif əşyalar | 10 556 ədəd |
| Tank koloniyasının tikintisi | 6 780 000 manat |
| Təyyarə eskadrasının tikintisi | 1 935 000 manat |
| Tibbi təyyarənin tikintisi | 20 450 manat |

*Mənbə.* NMR Dövlət Arxivi [2, v. 89–90].

1941-ci ildə və 1942-ci ilin birinci və ikinci rüblərində Naxçıvan (Babək) rayon zəhmətkeşləri müdafiə fonduna və qızıl əsgərlərə 230 sırıxlı, pencək, 1.980 cüt yun əlcək və yun corab, 940 dəst isti alt paltarları, 2.200 ədəd dəri, 413 kq yun, 1 kq 112 qram qızıl, 6 kq 961 qram gümüş, 872.000 manat pul, 1.255.000 manat zayom və sahibsiz uşaqlar üçün 11.467 manat pul vermişlər (Nax.MRDA. (keçmiş partiya arxivi) f.1. s1, iş. 2119).

Müharibə illərində Naxçıvanın iqtisadiyyatında kənd təsərrüfatı xüsusi əhəmiyyət daşıyırdı. Cəbhənin ərzaqla təmin olunması məqsədilə taxılçılıq, pambıqçılıq, üzümçülük və heyvandarlıq sahələrində istehsal artırıldı. Xüsusilə taxıl istehsalının artırılması, məhsuldarlığın inkişaf etdirilməsi, ordu üçün ət, süd və yun məhsullarının göndərilməsi, əkin sahələrinin genişləndirilməsi əsas vəzifələrdən idi. Kişi işçi qüvvəsinin azalmasına baxmayaraq, qadınlar və yeniyetmələr ağır kənd təsərrüfatı işlərində fəal iştirak edirdilər. Onlar biçin aparır, torpaq şumlayır, məhsul yığımı həyata keçirirdilər. Bir çox hallarda qadın briqadaları yüksək göstəricilər əldə edərək əmək yarışlarında qalib gəlirdilər. Naxçıvan kəndliləri dövlət fonduna normadan artıq məhsul təhvil verir, şəxsi təsərrüfatlarından da cəbhəyə yardım göndərirdilər.

**Cədvəl 3**
*Müharibə illərində qadınların fəaliyyəti*

| Fəaliyyət | Nəticə |
|---|---|
| Traktorçu | ✓ |
| Briqadir | ✓ |
| Ferma müdiri | ✓ |
| Kolxoz sədri | ✓ |
| Müəllim | ✓ |
| Tibb işçisi | ✓ |
| Rəhbər vəzifəyə irəli çəkilən qadınlar | 58 nəfər |

*Mənbə.* Müəllif tərəfindən NMR Dövlət Arxivinin materialları əsasında tərtib edilmişdir.

Böyük Vətən Müharibəsi dövründə arxa cəbhədə göstərilən əmək qəhrəmanlıqlarında qadınların böyük rolu olmuşdur. Belə ki, bu zaman sənayedə və kənd təsərrüfatında çalışan zəhmətkeşlərin əksəriyyəti qadınlar olmuşdur. 1943-1945-ci illərdə kənd təsərrüfatının cəbhənin ehtiyacını ödəmək səviyyəsində yüksəltmək ölkəmizin fəhlə sinfindən, kolxozçu kəndlilərindən və ziyalılarından böyük səy göstərməyi tələb edirdi. Müharibə illərində Naxçıvanlı qızlar kənd təsərrüfatı texnikasının idarə edən əsas qüvvəyə çevrilmişdilər. Belə ki, müharibədən əvvəl qadınlar mexanizator kadrların cüzi bir hissəsinin təşkil etdikləri halda, 1943-cü ildə mexanizatorların yarıya qədəri qızlar idi.

1943-cü ildə Naxçıvan MSSR zəhmətkeşləri fədakarcasına çalışaraq kənd təssərüfatı məhsulları istehsalını artırmaq sahəsində ciddi müvəffəqiyyətlər əldə etmişlər. Respublikanın kolxozları böyük hərbi təsərrüfat əhəmiyyəti olan gənəgərçək bitkisinin əkilib-becərilməsini mənimsəmişdilər. Müdafiə fondunun möhkəmləndirilməsi haqqındakı göstərişlərini alqışlayan evdar qadınlar qiymətli hədiyyələrini müdafiə fonduna vermişlər. Bunlardan Səkinə Məmmədova 3 qızıl üzük, Rübabə Talıbova 9 qram qızıl, Leyla Rzayeva 9 qram qızıl, Şura Bəktaşi 3 qızıl üzük, Səkinə Rzalı 6 qızıl üzük göndərmişdir. Naxçıvan MSSR zəhmətkeşləri Qızıl Ordumuzun döyüşçülərinə bayram hədiyyələri və isti paltarlar göndərməklə ölkənin müdafiəsi fonduna xeyli vəsait toplayıb vermişlər. Onlar 1942-ci ilin sentyabr-oktyabr aylarında qəhrəman döyüşçülərə və ölkənin müdafiəsi fonduna 60 kürk, 45 isti köynək, 25 dəst alt paltarı, 1033 cüt yun corab, 79 cüt keçə çəkmə, 127 yun ələk, 30 ədəd qulaqlı papaq, 20 sırıxlı pencək, 10 jilet, 35 qoyun, 2625 qutu sovqat, 13.719 manat nağd pul vermişlər (“Şərq qapısı” qəzeti, № 223, 1942).

Naxçıvan şəhərindəki 1№- li orta məktəbin müəllim və şagirdləri döyüşən Qızıl Ordu əsgərlərinə bayram münasibətilə 900 manat dəyərində 10 qutu sovqat, bundan başqa Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının işçiləri 15, Xalq Torpaq Komissarlığının işçiləri 11, poçt-teleqraf kontorası işçiləri 10, Böyükdüz, Vayxır, Kültəpə kolxozunun əməkçiləri hərəsi 10 qutudan ibarət bayram sovqatı göndərmişlər (“Şərq qapısı” qəzeti, 1942, № 221).

Müharibənin birinci günündən 1943-cü ilin oktyabr ayına kimi Naxçıvan Muxtar respublikasının zəhmətkeşləri müdafiə fonduna 1.080.085 manat pul, 244.000 manat istiqraz vərəqəsi, 1 kq 233 q qızıl, 10 kq 283 q gümüş, bunlardan əlavə 38.811 cüt əlcək, corab, qızıl ordu əsgərlərinə 6520 sovqat qutusu, 99 baş qoyun 4452 pud taxıl 4046 pud ət, 1118 kq yağ, 692 pud tərəvəz, 786 kq pendir, 43 kq bal, 742 ədəd dəri və 2135 kq yun toplayaraq göndərmişlər (Nax.MRDA. (keçmiş partiya arxivi) f.1. s1, iş.14., v.4). Yerli sovetliklərin və partiya təşkilatlarının səyi nəticəsində 7142 cəbhəçi ailəsinə 12.462 manat məbləğində yardım və 374.047 manat məbləğində müavinət verilmişdir (Nax.MRDA. (keçmiş partiya arxivi) f.1. s1, iş. 14., v.4). 1942-1943-cü illərdə Naxçıvan Muxtar Respublikasının kolxozçuları dövlətə 13179 pud yun, 677613 pud taxıl, 165970 pud ət, 6760 pud yağ təhvil vermişdilər. Naxçıvan zəhmətkeşləri qısa müddət ərzində tank və təyyarə dəstələri yaratmaq fonduna 800107 manat nağd pul vermişdir (“Şərq qapısı” qəzeti, 1975).

“Azərbaycan kolxozçusu” tank kaloniyasının yaradılmasına və qırıcı təyyarələrin artırılması fonduna yardım edilməsi haqqında Azərbaycan KP Naxçıvan rayon Komitəsinin 8 mart 1943-cü il tarixli qərarını əldə rəhbər tutan Naxçıvan (Babək) rayon kolxozçu və kolxozçu qadınları ölkəmizin müdafiə qüdrətinin möhkəmlətmək və alman faşist quldur dəstələrinin darmadağın edilməsi və bütün xalqların gələcək dinc yaşaması, uğrunda özlərinin vətənə olan sədaqətini bir daha əməli işlə sübut edərək qısa müddətdə rayon üzrə tank dəstəsi yaradılması fonduna 2.087,463 manat, təyyarə hazırlanması fonduna isə 492 497781 manat pul ödəmişlər (Nax.MRDA. (keçmiş partiya arxivi) f.1. s2, iş.12., v.1).

“Azərbaycan kolxozçusu” tank dəstəsi yaradılması və təyyarə fonduna yardım edilməsi işində qabaqcıl Cəhri kənd kolxozunun qadınları tərəfindən 263300 manat, Didivar kənd kolxozunun işçiləri tərəfindən 135500 manat, Nehrəm kənd kolxozçuları tərəfindən 130 min manat, Əznəbürt kənd kolxozunun işçiləri tərəfindən 97000 manat pul yardım edilmişdir (Nax.MRDA. (keçmiş partiya arxivi) f .1. s2, iş.12., v.1). Didivar kolxozunun sədri Qasımov Abbasəli Azərbaycan tank dəstəsi yaradılması fonduna 100 min manat və Cəhri kolxozunun sədri İsmayılov Yusif 100 min manat pul Azərbaycanın tank dəstəsi yaradılması fonduna vermişlər (Nax.MRDA. (keçmiş partiya arxivi) f.1. s2, iş.12., v. 1-2).

Müharibə dövründə 2.889 komsomolçu ümummәcburi hərbi təlim proqramını keçərək, müxtəlif hərbi peşələrə yiyələnmişlər. 1943-cü ildə Muxtar Respublika komsomolçuları tərəfindən müdafiə fonduna 300 q qızıl, 1.561q gümüş, 15qızıl üzük, 2 ədəd qolbaq, 5 qızıl saat və bir çox şeylər vermişdir. Komsomolçular “ Azərbaycan kolxozçusu” tank dəstəsi fonduna 1.369.709 manat vəsait vermişlər. Müharibə dövründə komsomolçuların qüvvəsilə 6.631 ədəd isti geyim şeyləri toplanaraq Qızıl Ordu

döyüşçülərinə göndərilmişdir. Bundan əlavə Qızıl Ordu döyüşçülərinə və qəhrəman sovet partizanlarına 436.708 manatlıq hədiyyə göndərilmişdir.

**Cədvəl 4**
*Gənclərin və komsomol təşkilatlarının fəaliyyəti*

| Fəaliyyət | Göstərici |
|---|---|
| Hərbi hazırlıq keçənlər | 2 889 nəfər |
| İsti geyim | 6 631 ədəd |
| Hədiyyə | 436 708 manat |
| Şumlanmış sahə | 6 000 ha |
| Təmizlənmiş kanal | 95 000 m |
| Toplanmış gübrə | 40 000 ton |

*Mənbə.* Müəllif tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin sənədləri əsasında tərtib edilmişdir (Nax.MRDA.(keçmiş partiya arxivi) f.1. s1, iş.14., v. 4; “Şərq qapısı” qəzeti, 1943, № 121; Nax.MRDA. (keçmiş partiya arxivi) f.1. s1, iş. 644., v. 2).

1943-cü ilin yaz əkininə hazırlaşarkən, respublikanın komsomolçularının və gənclərinin qüvvəsilə 40.000 ton yerli gübrə toplanmış və tarlalara daşınmış, 95000 metr uzunluğunda su kanalı təmizlənmiş və qaydaya salınmışdır. Təkcə komsomolçuların qüvvəsilə 6.000 hektar sahə şumlanmışdır. Komsomolçuların təşəbbüsü ilə plandan artıq 500 hektar sahədə dənli bitki, ot, tütün və başqa bitkilər əkilmişdir. Komsomolçuların və gənclərin qüvvəsilə 25 traktor , 2 toxumsəpən, 15 taxıl döyən maşın və s. təmir edilmişdir. Məhsul toplanışı zaman respublikanın 4.850 nəfər komsomolçusu kolxoz təsərrüfatında işləmişdir. Tarlalarda çalışan 100 komsomolçu – gənclər cəbhə briqadası 215 manat 5.000 nəfərdən artıq gənci əhatə etmişdir. Kolxoz komsomolçularının qüvvəsilə 25.000 hektardan artıq sahənin taxılı biçilmişdir (“Şərq qapısı” qəzeti, 1943, № 121). Mal-qaranın qışlamasına hazırlıq işində də komsomolçular az iş görməmişlər. Ancaq komsomolçuların qüvvəsilə 1.000 hektar sahənin otu biçilmiş, 400 sentner silos basdırılmışdır (Nax.MRDA. (keçmiş partiya arxivi) f.1. s1, iş. 644., v. 2).

Müharibə illərində cəbhəyə kömək üçün Ordubad rayon zəhmətkeşləri “Azərbaycan kolxozçusu” tank kaloniyasına və təyyarə hazırlanması üçün 1.950.250 manat zayom, 77 ton rəngli və qara metal, 4500-ə qədər bağalma, 2.500q qədər qızıl, gümüş və çoxlu miqdarda isti paltar və ərzaq məhsulları toplayıb göndəmişlər (Nax.MRDA. f.7. s. 1, iş. 644., v. 1). Bundan başqa qızıl əsgər ailələrinə kömək məqsədi ilə 61860 kq taxıl, 16533 kq müxtəlif ərzaq məhsulları, 2436 cüt ayaqqabı, 1620 ədəd paltar, 3873 sentner yanacaq (odun), 2375 sentner yem (heyvanların ehtiyatı üçün), 179000 manat nağd pul, 2862 ədəd cürbəcür sənaye malları toplanıb verilmişdir (Nax.MRDA. f.7. s.1, iş. 644., v. 2).

Qızıl əsgər ailələrindən 183 nəfərinin evi təmir edilmiş, 37 nəfərə isə un qızıl əsgər ailələrinə 3229677 manat yardım edilmiş və hərbi ailələrə 228.494 manat pensiya verilmişdir (Nax.MRDA. (keçmiş partiya arxivi) f.1. s. 1, iş. 644., v. 2).

Gənclər və məktəblilər belə bu prosesdə iştirak edir, metal tullantıları və dərman bitkiləri toplayırdılar. Müharibə dövründə gənclər və məktəblilər də arxa cəbhənin mühüm qüvvəsinə çevrilmişdilər. Onlar kənd təsərrüfatı işlərində iştirak edir, hospitalarda yaralılara yardım göstərir və müxtəlif ictimai işlərdə çalışırdılar. Pioner və komsomol təşkilatları cəbhəyə yardım kampaniyaları təşkil edir, əhali arasında vətənpərvərlik ruhunun gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirirdilər. 25 iyul 1942-ci ildə Naxçıvan MSSR gənclərinin Naxçıvan şəhər parkında birinci antifaşist mitinqi keçirilmişdir. Azərbaycan gənclərinin birinci antifaşist mitinqinin yekunlarına həsr edilmiş yığıncaqda 5000 nəfər gənc arxa cəbhədə çalışaraq iməclik yolu ilə müdafiə fonduna 324 min

422 manat nağd pul, döyüşçülərimizə 10 min ədəddən çox müxtəlif isti paltar və Qara Dəniz Donanmaçılarına 12 min manatlıq hədiyyələrin göndərilməsini qərara almışlar (“Şərq qapısı” qəzeti, № 205, 1942). Həmin mitinqdə çıxış edən Staxanovçu Səkinə Mustafayeva, kolxozçu gənclərdən Sənəm Allahverdiyeva, Fatma Kərimova, Fatma Ramazanova hər hektardan 7 sentner əvəzinə 40 sentner gənəgərçək məhsulu verməyi qət etmişlər. Keçirilən bu mitinqdə komsomolçu gənclərdən Föqiyə Cəfərova, Leyla Qəhrəmanova və başqaları çıxış edərək müdafiə fondunun güclənməsi, arxa cəbhənin gücləndirilməsi və s. işlərdən danışmışlar [4.1942.28 iyul].

Böyük Vətən Müharibəsi illərində sahibsiz uşaqların tərbiyə edilməsinə xüsusi diqqət yetirilirdi. 1942- ci ildə 2 uşaq evində 200 uşağın tərbiyə edilməsinə 583.800 manat pul sərf edilmişdirsə, 1943-cü ildə 400 uşağı əhatə edən 3 uşaq evinə 1.056.300 manat, 1944-cü ildə isə 1.108.900 manat pul buraxılmışdır [13.v.9]. 16 yanvar 1943-cü ilə qədər Naxçıvan Muxtar Respublikasının rayonları üzrə komsomolçuların və pionerlərin “Azərbaycan kolxozçusu” tank dəstəsinə yığılan vəsait rayonlar üzrə aşağıdakı kimi olmuşdur:

Naxçıvan (Babək) rayonu üzrə - 230000 manat; Şərur rayonu üzrə - 381.645 manat; Ordubad rayonu üzrə - 50.433 manat; Şahbuz rayonu üzrə - 41.718 manat; Əbrəqunus rayonu üzrə - 35000 manat; Culfa rayonu üzrə - 10. 000 manat; cəmi:748.796 manat [14.v.1]. “Azərbaycanın gənc pioneri” tank dəstəsinə yığılan vəsait rayonlar üzrə aşağıdakı kimi olmuşdur: Naxçıvan ( Babək) rayonu üzrə- 78000 manat; Şərur rayonu üzrə- 318.000 manat; Ordubad rayonu üzrə- 9897 manat; Şahbuz payonu üzrə- 4000 manat; Əbrəqunus rayonu üzrə- 500 manat; cəmi: 410.447 manat.

“Azərbaycanın gənc pionerləri” hərbi təyyarənin inşası üçün Naxçıvan ( Babək) rayonu üzrə - 24710 manat; Şərur rayonu üzrə - 72720 manat; Ordubad rayonu üzrə - 11504 manat; Şahbuz rayonu üzrə- 3.180 manat; Əbrəqunus rayonu üzrə - 2000 manat; Culfa rayonu üzrə - 6000 manat; cəmi: 120. 114 manat vəsait toplanmış cəbhə fonduna göndərilmişdir[14.v.3]. Naxçıvan zəhmətkeşləri, o cümlədən respublika komsomolçuları və pionerləri xüsusilə Tambov kolxozçularının təşəbbüsünə cavab olaraq “Daha çox tank verək” şüarına qoşularaq tank dəstələrinin yaradılması fonduna 1.279.357 manat pul toplayıb keçirmişlər. Bundan başqa Dəmirçi məktəbinin komsomolçuları bir gün ərzində 26.836 manat toplayıb həmin fonda keçirmişlər [14.v.2].

Şərur rayonunun Maxta kənd məktəbinin komsomolçu və pionerləri “Azərbaycanın gənc pionerləri” tank dəstəsinin yaradılması üçün 13.550 manat toplayıb keçirmişlər. Qarabağlar kənd məktəninin komsomolçu və pionerləri bu işə daha böyük təşəbbüslə qoşulmuşlar. VII sinif şagirdi Mədətov Qaraş Mədət oğlu 31 dekabr 1942-ci ildə kəndin gənclərinin yığıncağında çıxış edərək, tətildə qazandığı 10.000 manat pulu tank dəstəsinin fonduna verdi. Q. Mədətovun çıxışından sonra 15 gün ərzində məktəbin pioner və komsomolçuları “Azərbaycanın gənc pioneri” tank dəstəsinin fonduna 15.000 manat pul keçirdilər. Bundan başqa Şərur rayon Qıvraq kənd kolxozunun komsomolçu gəncləri 11.000 manat, Sərxanlı kənd kolxozunun 7 komsomolçusu 12.000 manat pul və 1000 kq taxıl, Yengicə kənd kolxozun kolxozçusu Məmmədov Lətifə 2500 manat pul və 150 kq darı, Düdəngə kənd kolxozunun komsomolçusu Şirəliyev Həsən 6000 manat, Kürtcülü kəndinin sakini kolxozçu İbrahimov Abbas 8000 manat, Ulya- Şərur kənd kolxozunun gənc kolxozçusu Mahmudov Ləzgi 5000 manat, Keştaz kənd kolxozunun kolxozçusu Ceyranov Qəzənfər 5000 manat nağdi pul “ Azərbaycan gənc pioneri” tank dəstəsinin yaradılması fonduna keçirmişlər [14.v.2].

Naxçıvan (Babək) rayonun pioner və komsomolçuları da bu təşəbbüsə qoşulmuşlar. Qaraxanbəyli kəndinin “28 aprel” adına kolxozun gənc komsomolçusu Cəfərov Rza Qara oğlu tətil zamanı qazandığı 20000 manat, Məzrə kənd kolxozunun komsomolçusu Hüseynəliyeva Zeynəb İbrahim qızı 10.000 manat, Xalxal kənd kolxozunun komsomolçuları 10.000 manat, Bulqan kənd kolxozunun kolxozçuları 8.000 manat, kolxozun komsomol təşkilat katibi Abbasov Şirəli 2.000 manat və 60 kq buğda, kolxozun üzvü Bağırov Məmmədəli 3.000 manat, 1000 kq buğda və 1 qoyun. Qaraçuq kəndinin komsomolçuları və pionerləri “ Azərbaycan kolxozçusu” tank dəstəsinin inşasına 35.000 manat pul və 2.000 kq buğda toplayaraq keçirmişlər [14.v.4].

Ali baş komandanın pioner Əliyeva Maral Bayram qızının adına göndərdiyi alqış teleqramı bütün Naxçıvan MSSR-in komsomolçu və pionerləri böyük ruh yüksəkliyi ilə qarşıladılar. 12 yanvar 1943-cü ildə Muxtar Respublikanın komsomolçu və pionerləri əlavə olaraq 20.000 manat pul və 20 qoyun toplayaraq həmin fonda keçirmişlər. Naxçıvan MSSR üzrə 1943- cü ildə "Azərbaycan kolxozçusu" tank koloniyasına 6.779.771 manat və hərbi təyyarələrin tikintisi üçün 2.326.406 manat yığılıb göndərilmişdir [7. v. 8].

"Azərbaycan kolxozçusu" tank kalonuna pul toplanmasında fərqlənənlərdən Naxçıvan (Babək) rayon kolxozunun sədri Məmməd Əliyev 350.000 manat, Şərur rayon "Sosializm" adına kolxozun sədri Hüseyn Əliyev 100.000 manat və rayonun "Stalin" adına kolxozunun sədri Allahverdiyev 6.000 manat pul keçirmişlər.

Şərur rayonunun zəhmətkeşləri, xüsusən komsomolçu gənclər daima vətənimizi yırtıcı düşməndən mərdliklə təmizləməkdə olan ordunun 416-cı Taqanroq diviziyasının qorxmaz döyüşçülərinə 1943-cü ilin sentyabr ayında 21 kq yağ, 560 yumurta, 200 dəftər, 70 qələm, 53 paket, 275 iynə, 29 sap,101 spirtli içki və başqa şeylər toplayıb göndərmişlər. Rayonun Mahmud kəndindəki "Telman" adına kolxozun üzvləri bu sahədə daha yaxşı iştirak etmişdir. Onlar 3 kq yağ, 50 yumurta, 60 iynə, 12 sap, 15 paket və bir baş qoyun toplayaraq göndərmişlər [15.1943.28 sentyabr].

Sənədlərdən məlum olur ki, müharibənin ilk günlərindən başlayaraq sentyabr 1943-cü ilə kimi Şərur rayon zəhmətkeşləri 244 min manat nəqd pul, 98510 manatlıq istiqraz vərəqəsi, 30000 cüt yun corab, 10.252 kq taxıl, 9717 kq ət, 154 kq yağ, 1082 kq yun, 34 qr 19 ml qızıl, 1880 kq mis və 55.500 kq toplayaraq müdafiə fonduna vermişdilər. 1 oktyabr 1943- cü ildə isə Şərur rayon zəhmətkeşləri müdafiə fonduna 12.600 kq taxıl, 11.657 kqə t, 184 kq yağ və 1138 kq yun toplayaraq göndərmişdilər.

Rayonun Sədərək kolxozunun kolxozçuları isə hərəsi 10 əmək gününün dəyərini müdafiə fonduna vermişdir. Rayonun Tumaslı kənd kolxozunun sədri Məmməd Əliyev 20 əmək gününün dəyərini vermiş, kolxozun ümumi iclasının qərarı ilə 1200 kq buğda, 20 kq yağ, 500 kq ət və s. müdafiə fonduna vermişlər. Şaxtaxtı kənd kolxozunun kolxozçuları isə müdafiə fonduna 642.5 kq yun, Şərur kənd kolxozunun üzvləri 242 kq ət vermişdilər.

1943- cü ildə 4300 nəfər məktəbli gənc komsomol təşkilatının rəhbərliyi ilə kolxoz təsərrüfatında və xalq təsərrüfatının başqa sahələrində işləməyə səfərbərliyə alınmışdır. Naxçıvan rayonunun Təzəkənd kolxozunda işləməyə çıxan kənd orta məktəbinin 50-55 nəfər komsomolçusu Sənəm Sadıqovanın başçılığı ilə komsomolçu gənclər briqadası təşkil etmişdir. Həmin kolxozda işə çıxan məktəblilərin qüvvəsi ilə 1 ton 700 kq sünbül toplanmış və kolxoza təhvil verilmişdir. Kolxozda məktəblilərin hesabına təşkil edilmiş həmin briqada sonra iki yerə bölünmüşdür. Bunlardan biri taxıl itkisi ilə kəskin mübarizə aparmış və ikinci briqada isə kolxozun başqa işlərində yaxından iştirak etmişdir [16.v.17].

Naxçıvan (Babək) rayon zəhmətkeşləri müharibənin ilk günlərindən cəbhəyə yekdilliklə böyük yardımlar etmişlər. Belə ki, 1 kq 12 q qızıl, 6 kq 965 q gümüş, 556.602 manat pul, 1.541.055 manat istiqraz 47.000 kq taxıl, 414 kq yağ, 1700 kq noxud, 100 baş donuz, 106 baş iri və xırda buynuzlu heyvan, 300 kq kartof, 179.618 kq qara rəngli metal, tank kaloniyası üçün 2.918.458 manat və təyyarə dəstələri yaradılmasına 329.000 manat nağd pul vermişlər [67.v.13-16].

Əkilmiş müdafiə hektarlarından 839 kq noxud, 50.139 kq taxıl, Qızıl Ordu döyüşçülərinə 4.523 bağlama (16.136 kq) 50 baş heyvan, 30.600 manat pul, 500 l araq və şərab, 7.250 cüt yun corab və əlcək, 273 teleqreyka, 2553 ədəd dəri, 940 dəst alt paltarı, 372 ədəd müxtəlif geyim paltarı göndərilmişdir [17.v.20].

Döyüşçülərə isə paltar alınması üçün Naxçıvan dövlət bankına 31.663 manat nağd pul verilmişdir. Bunlardan əlavə kolxoz və kolxozçuların artıq olan taxıllarından dövlət qiyməti ilə 500 ton taxıl satılmışdır [17.v.24]. Naxçıvan ( Babək) rayonunun kolxozçuları, fəhlə və qulluqçuları cəbhəçi

ailələrinə xüsusi qayğı göstərərək birdəfəlik 48.037 kq taxıl, 22.400 manat nəqd pul, heyvanların saxlanması üçün 125 ton yem, 236 kq ət, 100 kq yağ, 6.000 müxtəlif yeyinti şeyləri, südündən istifadə etmək üçün 96 qoyun və keçi, 5 ton yanacaq və bunlardan başqa süd, pendir, üzüm və s. ərzaqla yardım etmişdir (Nax.MRDA. f .2. s. 1, iş.18).

23 fevral 1943-cü ildə Qızıl Ordunun 25-ci ildönümü münasibətilə Şərur rayon kolxozçuları azad edilmiş ölkələrin əhalisinə yardım olaraq 110 baş qoyun, keçi, 645 pudbuğda, 244 pudarpa, 11 pud çəltik, 49 pud noxud, 11 min ədəd yumurta, 4 baş iri buynuzlu mal, 205 cüt əlcək, 389 cüt corab, 62 alt paltarı, 118 köynək, 4 şalvar, 11 sırıxlı, 161 dəri, 104188 manat pul, 99 kq yun, 11 ədəd adyal, 16 dəsmal, 131 qaşıq və kruşka, 27 mayka,14 döşək, 42 balınc, 100 ədəd mis qab, 85 tarelka, 5 kürk, 8 palaz və cecim, 15 kq tütün, toplayaraq göndərmişlər (Nax.MRDA. (keçmiş partiya arxivi) f.1. s1, iş., 1750). Müharibə dövründə Naxçıvan MSSR-də qadınların rəhbər işə irəli çəkilməsi, onların xüsusi ilə kənd təsərrüfatı sahəsində manqa, briqada, ferma, kolxozlara başçılıq etmə prosesi genişlənirdi. İstehsalata rəhbərlik üçün ayrı-ayrı sahələr üzrə kurslar yaradılır, onlarda məşğələ keçmək üçün təcrübəli təsərrüfatçılar cəlb olunurdular. Məqsəd tez bir zamanda müharibəyə getmiş istehsal komandirlərinə layiqli əvəzedicilər hazırlamaq idi.

1944-cü ildə Naxçıvan MSSR-də 58 qadın rəhbər təsərrüfat işinə irəli çəkilmişdi. Ümumiyyətlə, kənd təsərrüfatı üzrə həmin il 73 kolxoz sədri, 24 ferma müdiri, 161 mexanizator kadrları hazırlanmışdı. Kursları bitirən qadınlar kolxozlara sədr təyin edildilər. Qəhrəmanova Leyli Sovetabad "Kommunist" kolxozuna, Vəliyeva Bəyim-Köhnə Hacıvar-Kaqanoviç adına kolxoza, Rəsulova Tərlan-Qoşadizə-"Bolşevik" kolxozuna, Məmmədova Bulqan-Çaparidze adına kolxoza, Məmmədova Səkinə-Qaraxanbəyli-28 Aprel adına kolxozlara bacarıqla rəhbərlik etdilər. Naxçıvan rayonunda "Bakı fəhləsi" kolxozunun ferma müdiri N.Əliyeva ağır şəraitə baxmayaraq, hər il dövlət planlarının artıqlaması ilə yerinə yetirilməsinə nail olurdu.

Müharibə illərində Naxçıvan MSSR-də qadınların sovet aparatı işinə irəli çəkilməsi, onların şəhər, rayon, kənd Sovetlərinə rəhbərlik etməsi halları artmışdı. Ümumiyyətlə, bu işdə 120-dən artıq qadın çalışırdı. Onların əksəriyyəti müharibə dövründəki sözün əsl mənasında qəhrəman işlərinə görə orden və medallarla təltif edilmişdilər (Hacıyev, 2008, s. 58-75). 26 fevral 1944-cü ilə kimi Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri tərəfindən dövlət müdafiə fonduna 10.800.689 manat nağd pul, 24.400000 manat istiqraz vərəqəsi, 1 kq 233 q qızıl və 10.115.283 q gümüş verilmişdir (Nax.MRDA. (keçmiş partiya arxivi) f .1. s1, iş. 2132).

Ümumiyyətlə, Muxtar Respublikanın zəhmətkeşləri Almaniya qoşunlarının məğlub edilməsinə dəstək məqsədilə müharibə illərində Müdafiə Fonduna 180 milyon 89 min manat nağd pul, 12 kq qızıl və gümüş, yarım milyon pud taxıl, 150 mindən çox isti paltar və 10 mindən çox bağlama göndərmişlər. Dövrün mətbuatında əhalinin müharibə şəraitində əmək fəaliyyətini davam etdirməsi və cəbhəyə dəstək göstərməsi vətənpərvərlik və həmrəylik nümunəsi kimi təqdim olunurdu. Bununla yanaşı, 1943-cü illə müqayisədə 1944-cü ildə respublikada kolxozçuların gəliri 80 faiz artmış, hər əmək gününün dəyəri yüksəlmişdir. Təkcə Cəhri (Babək rayonu) kəndindəki kolxozda 1944-cü ildə 1941-ci illə müqayisədə 60 sentner çox taxıl istehsal edilmiş, dövlətə məhsul satışı üzrə planlar üçqat artıq yerinə yetirilmişdir (Azərbaycan komsomolçusu, 1975). Əgər 1940-cı ildə Naxçıvan MSSR üzrə dövlətə 2 899 ton taxıl verilmişdisə, 1944-cü ildə bu göstərici 3 861 tona çatmışdır. Beləliklə, 1940-cı illə müqayisədə 962 ton artım qeydə alınmış və 1944-cü ilin göstəricisi 1940-cı il səviyyəsinin təxminən 133,2%-ni təşkil etmişdir.

Müharibə illərində arxa cəbhədə əmək rəşadətləri göstərmiş onlarca müəllimlərimiz dövlətimiz tərəfindən orden və medallarla təltif edilmiş, bir çox müəllimlərimizə "Azərbaycan Respublikasının əməkdar müəllimi" və "Naxçıvan MR-nın əməkdar müəllimi" kimi fəxri adlar verilmişdir.

İkinci dünya müharibəsi həyatın demək olar ki, bütün sahələri kimi, onun bədii inkişafı olan bədii ədəbiyyatda da öz əksini tapmışdır. Bu dövrdə Naxçıvanda da bir sıra yazıçı və şairlər fəaliyyət

göstərirdi. “Şərq Qapısı”, “Ədəbiyyat” qəzetləri, “Vətən uğrunda” jurnalı yeni yazılan əsərləri işıqlandırmaq baxımından mühüm xidmət göstərirdi. Müharibə illərində xalqın mənəvi ruhunun yüksəldilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi və cəbhə ilə arxa cəbhə arasında mənəvi birliyin yaradılmasında ədəbiyyat mühüm rol oynamışdır. Naxçıvanın şair və yazıçıları bu dövrdə öz yaradıcılıqları ilə xalqın mübarizə əzmini gücləndirməyə çalışmış, müharibənin ağrı-acılarını, qəhrəmanlıq nümunələrini və qələbəyə inamı bədii şəkildə əks etdirmişlər. Böyük Vətən müharibəsi (1941-1945) illərində ümumazərbaycan ədəbiyyatının tərkib hissəsi kimi fəaliyyət göstərən Naxçıvan ədəbi mühitində vətənpərvərlik, faşizmə nifrət və qələbə inamı ruhunda əsərlərin yazılması xarakterikdir. Həmin dövrdə yaradılan əsərlərdə cəbhəarxası həyat, naxçıvanlıların döyüş rəşadəti və arxa cəbhədəki fədakarlıqları əsas mövzu olmuşdur. Dövrün ədəbi mühitində vətənpərvərlik mövzusu aparıcı olmuş, şeir və publisistika ön plana çıxmış, faşizmi tənqid edən əsərlər yazılmışdır. Müharibənin yaratdığı ağır iqtisadi və sosial şəraitə baxmayaraq, Naxçıvanda mədəni həyat tamamilə dayanmadı. Teatrlar, mədəniyyət evləri, məktəblər və qəzet redaksiyaları fəaliyyətlərini davam etdirirdi. Yerli mətbuat orqanlarında vətənpərvərlik mövzusunda şeirlər, publisistik yazılar və çağırış xarakterli məqalələr dərc olunurdu. Bu dövrdə xüsusilə poeziya ön plana çıxmışdı. Şairlər xalqı birlik və mübarizəyə səsləyir, cəbhədə döyüşən əsgərlərin qəhrəmanlığını tərənnüm edirdilər. Ədəbiyyat yalnız estetik məqsəd daşımır, həm də ideoloji və mənəvi silaha çevrilirdi.

Müharibə illərində Naxçıvanın ədəbi və ictimai mühitinin formalaşmasında, vətənpərvərlik ruhunun təbliğində "Şərq Qapısı" qəzeti Şərq qapısı” qəzeti müstəsna rol oynamış, Hüseyn Əzim, Ələkbər Məftun, Ənvər Əylisli, Məmmədəli Tarverdiyev, Nağı Nağıyev, Adil Babayev, Hacı Əsgərov, Əsgər Səfərov, müəllim Əli Məmmodov və s. yazarların əsərlərinin çap etməklə oxucularda, ümumiyyətlə, Naxçıvan mühitində qələbəyə sarsılmaz inam yaratmışdır. “Şərq qapısı”qəzeti müharibə dövründə mətbu sözdən kəsərli silah kimi istifadə edərək, qələmə sarılmış, yazmış,insanları ruhlandırmış, …düşmən qaqşısında əyilməzliyini göstərmiş və qələbə müjdəsinə öz şərəfli işi ilə imza atmışdır (Seyid, 2010, s. 107).

Hüseyn Əzim öz yaradıcılığında müharibə mövzusuna geniş yer vermiş, faşizm əleyhinə şeirlər yazmış, “Vətən”, “Terek sahilində”, “Yadigar”, “Gözü yolda qalan yar” kimi şeirlərlə oxucuların qələbəyə inamını artırmışdır. “Şərq qapısı” və “Ədəbiyyat qəzetində” şeirlər çap etdirən Hüseyn Əzimin “Vətən” şeirini vətənpərvərlik mövzusunda yazılmış qiymətli nümunələrdən hesab etmək olar:

Eşqindir çatdıran məni murada
Sevgilim, könlümü verməərəm yada
Min canım olsa da, mənim dünyada,
Demişəm yolunda qurbandır, Vətən!

“Terek sahilində” şerində faşistlərin törətdikləri qanlı cinayətləri, oğlunu, ailəsini itirmiş bir qocanın gəlininin faciəli taleyini təsvir edən müəllif “Dərmanımız, təbibimiz qələbədir, zəfəridir!” deyərək qələbəyə sarsılmaz inamını ifadə etmişdir.

Həm ədəbi, həm də publisistik fəaliyyətlə məşğul olan Nağı Nağıyevin “Polad” adlı pyesində Azərbaycan xalqının igid oğlu Poladın cəbhədəki misilsiz hünər və qəhrəmanlığını əks olunmuşdur. 1945-ci ildə Naxçıvan Dövlət Dram Teatrında müvəffəqiyyətlə tamaşaya qoyulan bu pyesin vətənpərvərlik ruhunda yazılmış mübariz ruhlu bədii nümunələr sırasında özünəməxsus yeri vardır.

Hələ tələbə ikən ədəbi yaradıcılığa başlayan Əkbər Məftun Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevə həsr etdiyi “Sən könül mülkünün iftixarısan”, “Xilaskar ordu”, “Ey Vətən” kimi lirik şerlərin müəllifi kimi Vətənə sədaqət, faşizmə nifrət mübarizəsinin ön sıralarında dayanmışdır. Sovet Ordusunun alman faşist işğalçılarına qarşı apardığı mübarizəni “Partizan hekayəsi” adlı şerində belə ifadə etmişdir: “Ümman oldu elin kini, Sipər etdi, sinəsini (“Şərq Qapısı” qəzeti, 1946).

Məmmədəli Tarverdiyev Böyük Vətən müharibəsi dövründə məsul partiya işində çalışmış, Vətən müharibəsində iştirak etmiş qəhrəman həmyerlilərimiz və əmək adamları haqqında bir sıra oçerklər yazmışdır. Onun fədakarlıqla işləyən sovet adamlarının ümumiləşmiş surətini əks etdirdiyi "Zaman" pyesi hissə-hissə "Şərq Qapısı" qəzetində çap olunmuş, böyük rəğbət qazanmışdır. Şair Hacı Əsgərov da müharibədə şücaət göstərən, Şərur rayonundan müharibəyə getmiş, "İgidliyə görə" medalı ilə təltif olunmuş Cəboş Şıxəliyev haqqında əsər yazmış, eloğlunun igidliyini tərənnüm etmşdir.

**Cədvəl 5**

*Böyük Vətən Müharibəsi dövründə Naxçıvan ədəbi mühitinin əsas nümayəndələri*

| Müəllif | Əsər | Əsas mövzu |
|---|---|---|
| Hüseyn Əzim | *Vətən*, *Terek sahilində* | Vətənpərvərlik, qələbəyə inam |
| Nağı Nağıyev | *Polad* | Qəhrəmanlıq |
| Əkbər Məftun | *Ey Vətən* | Faşizmə qarşı mübarizə |
| Məmmədəli Tarverdiyev | *Zaman* | Arxa cəbhə və əmək qəhrəmanlığı |
| Hacı Əsgərov | Cəboş Şıxəliyev haqqında əsər | Döyüş şücaəti |

*Mənbə.* Müəllif tərəfindən (Nax.MRDA. f.7. s.1, iş. 644; Nax.MRDA. f.2. s. 3, iş.118; Nax.MRDA. (keçmiş partiya arxivi) f.1. s. 1, iş.9; Şərq qapısı" qəzeti, 1943) və digər istifadə olunmuş elmi mənbələr əsasında tərtib edilmişdir.

Müharibə dövründə yazılan əsərlər gənclərdə yüksək vətənpərvərlik hissi yazıb-yaratmaq həvəsi oyatmış, İslam Səfərli, Davud Ordubadlı, Hüseyn İbrahimov və Əbülfəz Abbasquliyev, Hüseyn Razi kimi ədəbi mühitə yeni poetik nəfəsi gətrən imzaların yetişməsinə təkan vermişdir. "Şərq qapısı" qəzetinin 10 oktyabr 1941-ci il tarixli 183-cü sayında dərc olunmuş "Partizanın andı" şeirində gənc şair Hüseyn Razinin qəlbindən qopan haraya, qələbəyə srsılmaz inama şahid oluruq. "Qıraq zəncirləri, daş qəfəsləri, Ucalsın göylərə zəfər səsləri! –deyən şair müharibənin lap əvvəlindən inamın və ümidin sarsılmaz ifadəçisi kimi çıxş edir. Ənvər Əylislinin Vətəni tərənnüm edən, düşmənə nifrət aşılayan şeirləri də bu baxımından maraqlıdır.

Naxçıvan ədibləri təkcə qələmlə deyil, silahla da vuruşmuş, qələbənin qazanılmasında xüsusi rol oynamışlar. Fitri yaradıcılıq istedadına malik, muxtar respublikanın ictimai həyatında fəal iştirak etmiş, Birinci çağırış Naxçıvan MSSR Ali Sovetinin deputatı olmuş Qurban Qurbanov Böyük Vətən müharibəsi başlanandan sonra cəbhəyə getmiş və geri dönməmişdir. Qurban Qurbanov qısa ədəbi yaradıcılığı dövründə əsasən bir dramaturq kimi fəaliyyət göstərmiş "Ayrım", "Himalay", "Xosrov və Şirin" adlı dram əsərləri yazmış, həmin əsələr Naxçıvan Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulmuşdu. Müharibənin başlamasından bir qədər sonramüəllifin "Vətən uğrunda" pyesi "Şərq qapısı" qəzeində dərc olunmuşdur. Naxçıvan Muxtar Respublikasında İncəsənət İşləri Komitəsinin sədri, Naxçıvanda yazıçı kadrların yetişməsində böyük xidməti olan İsmayıl Sayılovun 416-cı Azərbaycan Taqanroq diviziyasının siyasi işçisi kimi müharibədə qəhrəmanlıqla həlak olmuşdur. Arxa cəbhədə qalan yazıçı və şairlər yeni ədəbi əsərlər yazmış, ağır və çətin dövrdə xalqı vətənpərvər ruhda tərbiyə və səfərbər etmək yolunda orulmadan fəaliyyət göstərmişlər.

Müharibə dövrünün folklor nümunələrində, aşıq yaradıcılığında xüsusən Aşıq Məmmədcəfərin şeirlərində vətənə sevgi və döyüşçülərə dəstək motivləri güclü olmuşdur. Naxçıvan ədəbi mühiti müharibənin gətirdiyi çətinliklərə baxmayaraq, yüksək ruh yüksəkliyi nümayiş etdirərək ədəbiyyata qiymətli əsərlər bəxş etmişdir.

Bu dövrdə ədəbiyyatın müxtəlif janrlarında yeni nümunələr yaranır, sözün gücü ilə cəbhədəki döyüşçüləri ruhlandırır, qələbəyə səsləyirdilər. Görkəmli ədəbiyyatşünas alim Əziz Şərif "Kəskin silah" adlı məqaləsində qeyd edirdi ki, bədii söz cəbhədəki igid döyüşçüləri, arxada yorulmaq

bilmədən çalışan fəhlə və kolxozçuları, cəbhədən xoş xəbərlər gözləyən ana və bacıları ruhlandırmaq, onlarda cəllad hitlerçilərə qarşı sarsılmaz ədavət yaratmaq, düşmənə qarşı mübarizə üçün istər cəbhədə, istərsə də arxada səfərbər etməyə qadirdir.

Müharibə dövründə “Həqiqi qəhrəmanın sadiq oğluna”, “Azərbaycan fəxr edir”, “Danışaq sünbüllər”, “Vətən”, “Cəbhədən məktub”, “Yadigar”, “Terek sahilində”, “Gözü yolda qalan yar”, “Partizanın andı”, “Sən köhnə müəllimimin iftixarısan”, “Xilaskar Ordu”, “Eşqim”, şeirləri, “Polad”, “Həl şeirləri” dram əsərləri, “Zərifə və Qəhrəman”, “Həkim” povestləri, “Zaman”, “Polad” pyesləri, “Səhər” romanı Naxçıvanda yaranan qiymətli ədəbi nümunələrdəndir (Cəfərov, 2015, s. 12–13).

**Müzakirə**

Tədqiqatın nəticələri göstərir ki, Böyük Vətən Müharibəsi illərində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında həyata keçirilən sosial-iqtisadi səfərbərlik tədbirləri yalnız cəbhənin maddi təminatına yönəlməmiş, eyni zamanda regionun ictimai həyatında yeni təşkilati və sosial münasibətlərin formalaşmasına da təsir göstərmişdir. Əldə olunan arxiv materialları müharibə şəraitində əmək ehtiyatlarının yenidən bölüşdürülməsi, qadınların və gənclərin istehsal prosesində rolunun artması, eləcə də yerli idarəetmə strukturlarının fəaliyyətinin intensivləşməsi kimi proseslərin kompleks xarakter daşıdığını göstərir.

Araşdırma nəticələri Azərbaycan tarixşünaslığında müharibə dövrünə dair aparılmış əvvəlki tədqiqatlarla ümumilikdə uyğunluq təşkil etsə də, Naxçıvan materiallarının ayrıca təhlili regionun özünəməxsus xüsusiyyətlərini üzə çıxarır. Əvvəlki araşdırmalar əsasən ümumrespublika səviyyəsində sosial-iqtisadi prosesləri xarakterizə etdiyi halda, bu tədqiqat yerli arxiv sənədləri əsasında regionun daxili sosial dinamikasını və arxa cəbhənin fəaliyyət mexanizmlərini daha ətraflı nümayiş etdirir.

Əldə olunan nəticələr göstərir ki, qadınların əmək fəaliyyətinə geniş şəkildə cəlb olunması yalnız işçi qüvvəsi çatışmazlığının aradan qaldırılmasına xidmət etməmiş, həm də onların ictimai və idarəetmə həyatında mövqeyinin güclənməsinə şərait yaratmışdır. Eyni zamanda komsomol və pioner təşkilatlarının fəaliyyəti gənclərin yalnız ideoloji deyil, həm də iqtisadi və sosial səfərbərlik proseslərində iştirak etdiyini göstərir.

Tədqiqat dövrü mətbuatın və ədəbi mühitin funksiyalarına dair də mühüm nəticələr ortaya qoymuşdur. "Şərq Qapısı" qəzeti və digər nəşrlər informasiya mənbəyi olmaqla yanaşı, əhalinin səfərbər olunmasına, vətənpərvərlik ideyalarının yayılmasına və sosial həmrəyliyin qorunmasına xidmət etmişdir. Ədəbi yaradıcılıq isə müharibə dövrünün ictimai-psixoloji mühitini əks etdirən mühüm tarixi mənbə kimi çıxış etmişdir.

Bununla yanaşı, tədqiqatın müəyyən məhdudiyyətləri də mövcuddur. Araşdırma əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan sənədlər və yerli dövri mətbuat materialları əsasında aparılmışdır. Digər regional arxivlərdə və mərkəzi fondlarda saxlanılan sənədlərin cəlb olunması gələcək tədqiqatlarda daha geniş müqayisəli təhlillərin aparılmasına imkan verə bilər. Bundan əlavə, statistik göstəricilərin digər regionlarla müqayisəsi Naxçıvanın müharibə illərindəki sosial-iqtisadi mövqeyinin daha obyektiv qiymətləndirilməsinə şərait yaradacaqdır.

Beləliklə, aparılmış təhlil göstərir ki, Naxçıvanda sosial-iqtisadi səfərbərlik, ictimai təşkilatlanma və ədəbi-mədəni fəaliyyət qarşılıqlı əlaqədə inkişaf etmiş, birlikdə regionun müharibə şəraitində davamlı fəaliyyətini təmin edən əsas amillərdən birinə çevrilmişdir. Bu nəticələr müharibə dövrü regional tarixinin öyrənilməsi baxımından yeni elmi yanaşmalar üçün də əsas yaradır.

## Nəticə

Aparılmış tədqiqat göstərir ki, Böyük Vətən Müharibəsi illərində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası ümumittifaq müdafiə sisteminin mühüm regional komponentlərindən biri kimi fəaliyyət göstərmişdir. Regionun məhdud iqtisadi imkanlarına baxmayaraq, yerli idarəetmə orqanlarının fəaliyyəti, əhalinin sosial səfərbərliyi və istehsal resurslarının səmərəli təşkili nəticəsində cəbhənin maliyyə, ərzaq və maddi-texniki təminatına əhəmiyyətli töhfə verilmişdir.

Tədqiqat nəticələri təsdiq edir ki, müharibə illərində əmək ehtiyatlarının yenidən təşkili Naxçıvanın sosial-iqtisadi davamlılığının qorunmasında əsas amillərdən biri olmuşdur. Kişi əhalisinin hərbi xidmətə çağırılması ilə yaranmış işçi qüvvəsi çatışmazlığı qadınların, gənclərin və məktəblilərin istehsal və ictimai fəaliyyətə daha geniş cəlb olunması hesabına qismən kompensasiya edilmişdir. Bu proses yalnız iqtisadi zərurətdən irəli gəlməmiş, eyni zamanda regionun sosial strukturunda mühüm dəyişikliklərə səbəb olmuşdur.

Araşdırma göstərir ki, müdafiə fonduna ayrılan maliyyə və maddi yardımların həcmi müharibə dövründə mərhələli şəkildə artmış, bu artım yerli əhalinin səfərbərlik tədbirlərində fəal iştirakını əks etdirmişdir. Arxiv sənədlərinin təhlili göstərir ki, yardım kampaniyaları təkcə dövlət təşəbbüsü deyil, həm də ictimai həmrəyliyin praktik ifadəsi olmuşdur.

Əldə edilən nəticələr həmçinin təsdiq edir ki, müharibə illərində formalaşmış ədəbi mühit və dövri mətbuat regionun sosial həyatında mühüm funksiyalar yerinə yetirmişdir. "Şərq Qapısı" qəzeti və digər mətbuat orqanları informasiya ötürməklə yanaşı, əhalinin mənəvi hazırlığının gücləndirilməsi, vətənpərvərlik ideyalarının təbliği və sosial həmrəyliyin qorunması istiqamətində mühüm rol oynamışdır. Ədəbi yaradıcılıq isə dövrün ictimai-psixoloji mühitini əks etdirən və tarixi hadisələrin öyrənilməsi üçün qiymətli mənbə kimi çıxış etmişdir.

Bu tədqiqatın əsas elmi yeniliyi Naxçıvanda müharibə dövrünün sosial-iqtisadi səfərbərliyi ilə ədəbi-mədəni mühit arasındakı qarşılıqlı əlaqənin vahid konseptual çərçivədə araşdırılmasıdır. Əvvəlki tədqiqatlardan fərqli olaraq, arxiv sənədləri, statistik məlumatlar və dövri mətbuat materialları birlikdə təhlil edilmiş, onların qarşılıqlı təsiri regional tarix kontekstində qiymətləndirilmişdir.

Tədqiqatın nəticələri Azərbaycanın regional tarixinin öyrənilməsi, müharibə dövründə sosial səfərbərlik modellərinin müqayisəli təhlili və mədəni irsin tarixşünaslıq baxımından araşdırılması üçün faydalı elmi baza yaradır. Gələcək tədqiqatlarda Naxçıvanın digər SSRİ regionları ilə müqayisəli şəkildə öyrənilməsi, həmçinin müharibə dövründə formalaşmış sosial şəbəkələrin və mədəni institutların uzunmüddətli təsirlərinin araşdırılması məqsədəuyğun hesab edilir.

## Ədəbiyyat

Akbarov, Q. G. (2024). During World War II: From the history of cultural development of Nakhchivan. *Batı Anadolu Eğitim Bilimleri Dergisi, 6*(1), 86–92.

Aliyeva, G. (2025). Azerbaijani national divisions that wrote the battle chronicle in World War II. *History of Science, 6*(5), 5–15. https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.5-15

*Azərbaycan komsomolçusu*. (1975). №4.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 26, iş 56.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 89, iş 112.

Barber, J., & Harrison, M. (1991). *The Soviet home front, 1941–1945: A social and economic history of the USSR in World War II*. Longman.

Cəfərov, F. A. (2015). *Naxçıvan İkinci Dünya müharibəsi illərində*. Elm və Təhsil.

Əmrahov, M. İ. (2021). *Azərbaycan SSR İkinci Dünya Müharibəsində (1939–1945)*. İdeal-Print.

Hacıyev, İ. M. (2008). *Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı (1941–1945-ci illər)*. Elm.
Harrison, M. (1996). *Accounting for war: Soviet production, employment, and the defence burden, 1940–1945*. Cambridge University Press.
Ibrahimova, K. (2025). İkinci Dünya Müharibəsinin azərbaycanlı qadınları: Araşdırmalar və nəticələr. *Akademik Tarih ve Düşünce Dergisi, 12*(3).
Nax.MRDA. (Keçmiş Partiya Arxivi). Fond 1, siyahı 1, iş 14.
Nax.MRDA. (Keçmiş Partiya Arxivi). Fond 1, siyahı 1, iş 1750.
Nax.MRDA. (Keçmiş Partiya Arxivi). Fond 1, siyahı 1, iş 2119.
Nax.MRDA. (Keçmiş Partiya Arxivi). Fond 1, siyahı 1, iş 2132.
Nax.MRDA. (Keçmiş Partiya Arxivi). Fond 1, siyahı 1, iş 644.
Nax.MRDA. (Keçmiş Partiya Arxivi). Fond 1, siyahı 1, iş 9.
Nax.MRDA. (Keçmiş Partiya Arxivi). Fond 1, siyahı 2, iş 12.
Nax.MRDA. (Keçmiş Partiya Arxivi). Fond 1, siyahı 2, iş 8.
Nax.MRDA. Fond 116, siyahı 1, iş 419.
Nax.MRDA. Fond 2, siyahı 1, iş 18.
Nax.MRDA. Fond 2, siyahı 3, iş 118.
Nax.MRDA. Fond 2, siyahı 3, iş 38.
Nax.MRDA. Fond 7, siyahı 1, iş 644.
Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi. Fond 1, siyahı 1, iş 8.
Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi. Fond 1, siyahı 26, iş 8.
Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi. Fond 276, siyahı 1, iş 15.
*Şərq qapısı*. (1942, November 3). №221.
*Şərq qapısı*. (1942, November 7). №223.
*Şərq qapısı*. (1942, September 26). №205.
*Şərq qapısı*. (1943, October 29). №121.
*Şərq qapısı*. (1943, September 28).
Seyid, S. (2010). *Şərq qapısı qəzeti və Naxçıvanda ədəbi mühit*. Elm və Təhsil.
Süleymanov, M. S. (2011). *Azərbaycanın hərb tarixi* (Vol. 2). Firuzan.
Süleymanov, M. S. (2018). *Azərbaycan Ordusunun tarixi* (Vol. 4). Maarif.